

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 26 (21.687)

*7 fevral 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə Belçika Krallığına səfərə gedib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 6-da Brüsseldə Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker ilə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Brüsseldə Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini ilə işçi səhər yeməyi edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 6-da Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşü olub.

Sonra dövlətimizin başçısı və Avropa İttifaqı Şurasının prezidenti işçi lanç ediblər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk mətbuata birgə bəyanatla çıxış ediblər.




## S.H.Məmmədovun Naxçıvan Muxtar Respublikasının maliyyə naziri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Səbuhi Hidayət oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının maliyyə naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 fevral 2017-ci il*

## X.S.İsgəndərovun Naxçıvan Muxtar Respublikasının maliyyə naziri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xalid Səməd oğlu İsgəndərov Naxçıvan Muxtar Respublikasının maliyyə naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 fevral 2017-ci il*

## S.H.Məmmədovun Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Səbuhi Hidayət oğlu Məmmədov Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 fevral 2017-ci il*

## Yeni istehsal müəssisələrinin yaradılması cari ildə də davam etdiriləcək

Cari ilin ötən dövrü ərzində müasir texnologiyaların tətbiqi yolu ilə tələbatı idxal hesabına ödənilən, muxtar respublikanın rayon, qəsəbə və kəndlərinin xammal və əmək ehtiyatları nəzərə alınmaqla yeni istehsal sahələrinin yaradılması məqsədilə müxtəlif təyinatlı 92 layihənin sahibkarlara təqdimatı keçirilib.

İstehsal potensialının gücləndirilməsi istiqamətində 2017-ci ilin ötən dövrü ərzində Sahibkarlığa Kömək Fonduna təqdim olunan biznes-planların iqtisadi səmərəliliyi araşdırılıb və yaradılması səmərəli sayılan 12 layihə müəyyən edilib. Məqsədəmüvafiq hesab olunan sahələr, əsasən, nümunəvi fermer təsərrüfatını, heyvandarlıq, quşçuluq, arıçılıq təsərrüfatlarını, bağçılıq, o cümlədən göycə bağının salınmasını, həmçinin arıçılıq məhsullarının istehsalı, tədarükü və satışını, plastik tara istehsalını əhatə edir.

Həyata keçiriləcək layihələrin reallaşdırılması məqsədilə Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına 345 min 900 manat olmaqla, ümumilikdə, 472 min manat investisiyanın yönəldilməsi nəzərdə tutulub.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## *Dəyişikliklərin miqyası:* davamlı proseslər və dayanıqlı inkişaf

Müstəqil Azərbaycan dövləti bütün coğrafi ərazisində hərtərəfli və müasir inkişafın təmin edilməsi yollarında uğurla irəli getməkdə davam edir. Ölkəmizin böyük dağıntılardan, dərin iqtisadi böhrandan çıxaraq ən müasir inkişaf səviyyəsinə çatması, dünyanın əsas söz sahiblərindən və güc mərkəzlərindən birinə çevrilməsi çoxəsrlik tarixə malik olan Azərbaycanın müstəqillik dövrünün mühüm nailiyyətidir. Bu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəqil dövlətçilik strategiyasının reallığıdır.

Əsrin dörddə biri qədər qısa zaman içərisində Azərbaycan Respublikasında keçilmiş möhtəşəm yol müstəqillik qazanmış yeni dövlətlər üçün mühüm örnəkdir. Bu, həm də ölkəmizdə ardıcıl və davamlı dövlət quruculuğu proseslərinin məqsədyönlü şəkildə irəli aparılmasının, seçilmiş düzgün yolun qətiyyətlə və yaradıcılıqla davam etdirilməsinin uğurlu nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın milli dövlətçilik maraqlarına əsaslanan dönməz mövqeyi və ölkəmizi islahatdan-islahatlara doğru davamlı surətdə inkişaf etdirmək strategiyası, müasirləşmə istiqamətindəki kompleks proqramları əhatə edən genişmiqyaslı baxışları, obyektiv reallıqları əks etdirən düşünülmüş addımları sayəsində müstəqil dövlətimiz sürətlə inkişaf edərək böyük nailiyyətlər əldə etmişdir.

Qətiyyətlə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni Azərbaycan dünya xəritəsində əhəmiyyətli mövqeyə və dayanıqlı inkişafa malik olan qüdrətli dövlətlərdən birinə çevrilmişdir. Dövlət başçısının ölkəmizin paytaxtında və regionlarında həyata keçirdiyi böyük quruculuq proqramları və yeniləşmə hərəkatı Azərbaycanı yeni epoxanın əsas simasını müəyyən edən ölkələr sırasına çıxarmışdır. Ölkəmizi bundan sonra da inamla qabağa aparmaq yolunda regional inkişaf proqramlarına xüsusi əhəmiyyət verən Prezident İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə III sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr edilmiş konfransdakı dərin məzmunlu nitqində deyildiyi kimi, *"Regionların inkişafı, ölkə iqtisadiyyatının şaxələnməsi istiqamətində atılan bu addımlar, infrastruktur ilə bağlı olan layihələr... bugünkü reallığı yaratmışdır"*. Bu mənada, ölkəmizdə ardıcıl olaraq həyata keçirilən təməlqoyma və açılış mərasimləri, xalqın istifadəsinə verilən mühüm infrastruktur layihələri ahəngdar bir prosesin real ritmlərini, dinamik notlarını nümayiş etdirir. Bu baxımdan Prezident İlham Əliyevin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına səfərləri də respublikamızın yeni simasını müəyyən edən böyük dəyişikliklərin reallaşdırılmasının geniş miqyasını təsəvvür etməyə imkan yaradan tarixi hadisələrdir. Naxçıvan Muxtar Respublikasının müstəqil dövlətimizin başçısı qarşısındakı hesabatları ölkəmizin yeniləşmə və quruculuq proseslərinin faydalı və əhəmiyyətli nümunələri ilə yaddaşlara yazılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin mühüm strateji əhəmiyyətə malik olan bu diyarında – Naxçıvanda baş verən dəyişikliklərə münasibətində və həyata keçirilən böyük proqramların uğurlu həllinə verdiyi qiymətləndirilmələrdə tarixiliklə müasirliyin üzvi əlaqəsi, mükəmməl sintezi həmişə əsas meyar olmuşdur. Dövlət başçısının səfərləri zamanı hər dəfə müşahidə, etdiyi və yüksək qiymətləndirdiyi bu meyar, geniş mənada, Azərbaycanda davamlı bir proses kimi ümummilli dəyərlərin, çoxəsrlik ənənələrin qorunub daha da möhkəmləndirilməsi əsasında müasir inkişafa nail olmaq siyasətinin əhəmiyyətini diqqət mərkəzinə çəkməyə xidmət edir. Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfərləri müddətində ən müasir infrastruktur layihələri ilə yanaşı, Əshabi-Kəhf ziyarətgahına, qədim Duzdağ mədənlərinə, tarixi-memarlıq abidələrinə, zəngin maarifçilik ənənələrinə xüsusi fikir verməsi müstəqil dövlətimizin Azərbaycançılıq ideologiyasının tam, bütöv fəlsəfəsini və strateji xəttini ifadə edir. Ölkəmizin rəhbərinin 11 yanvar 2017-ci il tarixdə Azərbaycanın bu tarixi diyarına növbəti səfərində də tarixilik və müasirlik diqqət mərkəzində olmuşdur. Prezident İlham Əliyevin Naxçıvan şəhərindəki əsaslı yenidənqurmadan sonra istifadəyə verilən 3 saylı tam orta rus məktəbinin açılışı mərasimindəki çıxışında deyilmiş aşağıdakı sözlər ölkəmizdəki müasirləşmə və inkişaf proseslərinə milli-tarixi ənənələrin mahiyyətindən çıxış edərək yanaşmanın daha bir sübutudur: *"Naxçıvan dünya miqyasında öz gözəlliyi ilə seçilən bir şəhərdir. Əlbəttə ki, Naxçıvanın qədim və zəngin tarixi bizim milli sərvətimizdir. Naxçıvan Azərbaycanın qədim diyarıdır, qədim torpağıdır. Burada tarixi abidələr qorunur. Bu tarixi abidələr bizim qədim tariximizi göstərir. Onu göstərir ki, əsrlər boyu Azərbaycan xalqı bu diyarda yaşayıb, yaradıb. Bu, bizim böyük milli sərvətimizdir!"*

Ölkəmizdəki əsas sivilizasiya mərkəzlərindən biri olan Naxçıvanın böyük tarixi dövrlər ərzində Azərbaycana və dünyaya bəxş etdiyi şərəfli tarixi və mədəniyyət abidələrinin milli sərvət səviyyəsində dəyərləndirilməsi həm azərbaycançılığın ölkəmizdə əsas faktor olmasını daim nəzərə almaq, həm də milli-mənəvi dəyərlərimizi qorumaq, inkişaf etdirmək, daha da möhkəmləndirmək üçün səfərbər olmaq deməkdir. Heç şübhəsiz, bu o deməkdir ki, ümummilli dəyərlərimizi və sərvətlərimizi qorumaq və inkişaf etdirmək möhtəşəm quruculuğun əsas start nöqtəsidir.

Möhtərəm Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında"kı 12 yanvar 2017-ci il tarixli Sərəncamında da müasir inkişafa, yeni dəyişikliklərə tarixi ənənələr miqyasından qiymət verilmişdir. Dövlət başçısının əlavə tədbirlər haqqında sərəncamındakı tarixi ekskursa dair dərin məzmunlu "giriş", əslində, müasir dövrün müstəqil dövlətçilik meyarlarının ana xətlərini özündə əks etdirir: "Zəngin tarixə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikası

*Ardı 2-ci səhifədə*

çox mürəkkəb, lakin parlaq inkişaf yolu keçərək Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında özünəməxsus yer tutmuş, ölkəmizin inkişafında hər zaman əhəmiyyətli rol oynamışdır”.

Dövlət başçısının ölkəmizin müasir inkişafı konsepsiyasında ifadə olunan “hər zaman” anlayışı sadəcə tarixə obyektiv qiyməti əks etdirməklə qalmır, inkişaf proseslərində varislik və müasirlik münasibətlərinin qorunub saxlanılmasının əhəmiyyətini, zəruriliyini diqqət mərkəzinə çəkir. Naxçıvan Muxtar Respublikasının timsalında inkişaf meyarlarında diqqətə çatdırılan ənənə və müasirləşmə ölkəmizdə artıq davamlı və oturuşmuş bir sistemə çevrilmişdir. Bu, yeni Azərbaycanın Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, bütövlükdə ölkəmizin çoxəsrlik tarixinin layiqli varisi olduğunu və böyük ənənələrin əsasında hərtərəfli və sürətli inkişafın zəruriliyini mühüm vəzifələr sırasına çıxarır.

Prezident İlham Əliyevin siyasəti, ölkəmizdə davamlı inkişafın əsas mənbəyi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sınaqlardan çıxmış və hədəfləri daha böyük gələcək olan müstəqil dövlətçilik təlimidir. Demək olar ki, əksər çıxışlarında, nitqlərində istinadgah kimi nəzərə çarpdırılan bu mühüm faktor Naxçıvan Muxtar Respublikasına səfərlər zamanı mütləq ön mövqeyə çəkilir, həmin amil inkişafın əsas mahiyyətini və qiymətini müəyyən edir. Görkəmli dövlət xadimi Heydər Əliyev kimi böyük bir dühanı Azərbaycana və dünyaya bəxş edən tarixi bir diyar olmasından başqa, həm də ümummilli liderin yaxın tariximizin ən çətin və mürəkkəb dövrlərində burada böyük xilaskarlıq missiyasını həyata keçirməsi, dövlət müstəqilliyinin mühüm addımlarını atması, ilk dəfə üçrəngli Azərbaycan bayrağını müstəqil dövlətçiliyin rəmzinə çevirməsi də bu böyük dühadan ürək dolusu söz açmağa tam əsas verir. Prezident İlham Əliyevin digər səfərlərində olduğu kimi, 11 yanvar 2017-ci il tarixli səfərində də dəyişikliklərə və proseslərə ümummilli liderin gözü ilə, onun böyük xidmətlərinin fonunda qiymət verilməsi ölkəmizin müasir siyasi həyatında Heydər Əliyev dövlətçilik təliminin mühüm yer tutduğunu göstərməyə əsas verir. Prezidentin hər yerdə, o cümlədən Naxçıvanda da bütün səfərlərini Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin möhtəşəm abidəsini ziyarət etməkdən başlaması bu ulu şəxsiyyətə əbədi ehtiramı ifadə etməklə bərabər, həm də inkişafın yeni mərhələsinə onun siyasətinin işığında diqqət yetirib qiymət veriləcəyinin paroludur. Tarixi ənənələri, müasir strateji mövqeyi, coğrafi vəziyyəti, dövlətçilik yollarındakı məsuliyyəti bir daha Naxçıvan Muxtar Respublikasında səfərdən-səfərə baş verən dəyişikliklərin Heydər Əliyevin əsasını qoyduğu, möhkəm təməllərini yaratdığı strategiyanın işığında qiymətləndirilməsi zərurətini meydana çıxarır.

Bu mənada, Prezident İlham Əliyevin müstəqil Azərbaycan dövlətinin Naxçıvan Muxtar Respublikasına münasibətindən söz açarkən görkəmli dövlət xadimi Heydər Əliyevin yanaşmalarından çıxış etməsi tam təbii səslənir: *“Ulu öndər Heydər Əliyev həmişə Naxçıvana böyük diqqətlə yanaşırdı, respublikanın problemlərinin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm... Çox şadam ki, respublikada uğurlu inkişaf təmin olunur. Bu münasibətlə respublikanın rəhbərliyini və sakinlərini təbrik etmək istəyirəm. Doğrudan da son illər ərzində Naxçıvanda böyük inkişaf yolu keçilmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşdırılması onu göstərir ki, respublika möhkəm ayaqda dayanır”.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov da bütövlükdə Azərbaycanda, o cümlədən Naxçıvanda da baş vermiş dəyişikliklərdə ümummilli lider Heydər Əliyevin dövlətçilik strategiyasının və Prezident İlham Əliyevin yeni epoxada müasirləşmə və inkişaf modelinin əvəzolunmazlığını bir daha diqqət mərkəzinə çəkmişdir: “Möhtərəm cənab Prezident! Bu gün yeni inkişaf dövrünü yaşayan ölkəmizlə bağlı tövsiyələriniz muxtar respublikada da ardıcıl şəkildə həyata keçirilir. Sizin rəhbərliyinizlə həyata keçirilən quruculuq işləri, sabitlik və iqtisadi inkişaf uğurla davam etdirdiyiniz ümummilli lider Heydər Əliyev yoluna sədaqətin bəhrələridir”.



Dövlət başçısının Naxçıvan Muxtar Respublikasına səfəri ümummilli lider Heydər Əliyev yoluna və Prezident İlham Əliyev siyasətinə dərin sədaqətin və əməli işlərlə cavab verməyin növbəti uğurlu hesabatıdır.

Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətdə xalq amilinin əsas kimi qəbul edilməsi, sosial rifahın yaxşılaşdırılması həmişə diqqət mərkəzində dayanıb. Bu da, öz növbəsində, ölkəmizdə sosial təminatın ardıcıl olaraq yaxşılaşdırılması ilə yanaşı, həm də bu sahədəki inkişafda mühüm rola malik olan infrastruktur layihələrinin həyata keçirilməsini ön sıraya çəkir. Beləliklə, ölkəmizdə müasir dövrün xarakteri sosial-iqtisadi inkişaf mərhələsi kimi səciyyələnir. Naxçıvan Muxtar Respublikasında da iqtisadi inkişafın bu istiqamətdə aparılması və konkret nəticələr verməsi həm ümumi inkişafa təkan vermiş, həm də regionda əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, yeni imkanların meydana çıxmasına səbəb olmuşdur. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında”kı 12 yanvar 2017-ci il tarixli Sərəncamında muxtar respublikada bu istiqamətdə əldə olunan mühüm nəticələrə, diqqətəlayiq yekunlara dövlət səviyyəsində yüksək qiymət verilmişdir: “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində bu gün də dinamik inkişaf edən muxtar respublikada infrastrukturun müxtəlif sahələrində irimiqyaslı layihələr həyata keçirilmiş, elektrik stansiyaları istismara verilmiş, yeni yollar çəkilmiş, müasir sənaye və kənd təsərrüfatı müəssisələri yaradılmış, idman kompleksləri, təhsil, səhiyyə, mədəniyyət və turizm ocaqları inşa olunmuş, nəticədə minlərlə iş yeri açılmışdır”. Ölkə başçısının Naxçıvan Muxtar Respublikasına 11 yanvar 2017-ci il tarixli səfəri çərçivəsində irimiqyaslı sosial-iqtisadi obyektlərin rəsmi açılışında iştirak etməsi, bu obyektləri xalqın istifadəsinə verməsi, yeni təməlqoymalara imza atması davamlı proseslərin qanunauyğun məntiqi nəticəsidir. Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimi, Culfa və Şahbuzda rayon mərkəzlərinə və ətraf kəndlərə içməli suyun verilməsi, Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün inşa edilmiş yaşayış binasının, “N” saylı hərbi hissədəki yataqxananın və Əsgəri-Məişət Kompleksinin açılışı əhalinin həyat səviyyəsinin, sosial imkanlarının inkişaf etdirilməsinə xidmət edən genişmiqyaslı və əhəmiyyətli faktlardır. Bu hadisələrdən hər biri həm regionun sosial-iqtisadi inkişafında, həm də əhalinin müxtəlif təbəqələrinin həyatında mühüm dəyişikliklərə şərait yaradır. Həmin dəyişikliklər bu günün əsas sosial-iqtisadi nəticələrindən olmaqla bərabər, həm də bundan sonrakı inkişafın hərəkətverici qüvvəsinə çevrilir. Bütün bunların fonunda Naxçıvan Muxtar Respublikasının bu gününün real mənzərəsini görməklə yanaşı, yaxın və uzaq sabahlarını da aydın surətdə təsəvvür etmək mümkün olur. Ölkə Prezidenti İlham Əliyevin iqtisadi inkişafda birinci hədəf hesab etdiyi enerji müstəqilliyimizin təmin edilməsi sahəsində atılmış daha bir mühüm addım olan Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimi diyarda əlavə 36 meqavat gücündə elektrik enerjisi vasitəsilə yeni iqtisadi imkanlara yol açılmasına şərait yaradır. Prezidentin nitqində deyildiyi kimi, “bu, Naxçıvan Muxtar Respublikasının iqtisadi və enerji potensialını böyük dərəcədə gücləndirəcək... enerji təhlükəsizliyi daha da möhkəmlənəcək və eyni zamanda, Naxçıvanın ixrac potensialı daha da artacaq”. Bu isə öz növbəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında yeni layihələrin həyata keçirilməsi, əlavə qazanc mənbələrinin əldə edilməsi deməkdir. Ordubad Su Elektrik Stansiyasının inşa edilməsi Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə əlaqələrinin genişləndirilməsində də böyük addım olacaqdır. Bu yaxınlarda açılmış Naxçıvan-Təbriz-Məşhəd dəmir yolu da qonşu dövlətlə əlaqələrin inkişafında yeni mərhələnin mühüm hadisəsidir. Bu dəmir yolu marşrutunun ən yaxın zamanlarda “Şimal-Cənub nəqliyyat dəhlizi” vasitəsilə ölkəmizin vahid dəmir yolu magistrallarına birləşməsi ilə Naxçıvandan Bakıya və dünyaya yola düşəcək yük və sərnişin qatarlarına start veriləcəkdir. Bütün bunlar həm muxtar respublikanın çətin blokada vəziyyətindən xilas olması, həm də daha böyük templərdə inkişaf etdirilməsi deməkdir.

Ölkə rəhbərinin Naxçıvan Muxtar Respublikasına səfərlərinin hamısında yeni məktəblərin açılışı mərasimləri keçirilmişdir. Naxçıvanın məktəb tikintisi hərəkatında kəmiyyət və keyfiyyət göstəricilərinin bir-birini tamamlaması təhsilin inkişafına böyük töhfələr verir. Yeni məktəblərdə yaradılan müasir şərait – kompüterləşmə, geniş internet imkanları, laboratoriyalar, elektron lövhələr, yerli məktəb mebeli təhsil mühitini dəyişmiş, yeni tipli maarifçilik hadisəsinin baş verməsinə səbəb olmuşdur. Naxçıvan Dövlət Universitetində, “Naxçıvan” Universitetində, Naxçıvan Müəllimlər İnstitutunda hazırlanan yüksəkixtisaslı mütəxəssislərin məktəb hərəkatındakı fəal rolu təhsil sahəsində çox böyük nailiyyətlərin meydana çıxmasını şərtləndirir. Naxçıvan şəhərindəki 3 saylı tam orta rus məktəbinin binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi muxtar respublikada böyük ənənəsi olan maarifçilik hərəkatının yaddaqalan hadisələrindən biridir.

Prezident İlham Əliyevin qənaətinə görə, məktəb sosial infrastruktur layihələrinin bariz təzahürüdür. Həqiqətən də müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında 200-ə yaxın yeni məktəb binasının istifadəyə verilməsi Azərbaycan üzrə rekord göstəricidir. Naxçıvan Muxtar Respublikasının bütün rayonlarındakı məktəblərinin vahid elektron-internet şəbəkəsində birləşdirilməsi, “Muzeydən məktəbə” açıq dərslərinin eyni dərs saatında keçilməsi diyarda məktəb hərəkatının əhəmiyyətli hadisələridir. Əsası 1939-cu ildə qoyulmuş və sonralar təhsil göstəricilərinə görə böyük nüfuz qazanmış 3 saylı tam orta rus məktəbi Naxçıvanda maarifçilik hərəkatında Qərbyönlü inkişafa, Rusiya elmi və təhsilinə bəslənilən marağın daha bir göstəricisidir. Məlum olduğu kimi, Şərq ilə Qərbin qovşağında yerləşən Naxçıvanda milli maarifçi ənənələrin qorunub saxlanılması və inkişaf etdirilməsi ilə bərabər, Qərbyönlü maarifçilik meyillərinə üstünlük verilmişdir. Burada XIX əsrin əvvəllərindən dünyəvi məktəblərin açılması, 1883-cü ildə teatrın yaranması, dünya mətbuatının əldə edilib oxunması həmin istiqamətdə atılmış tarixi addımlardır. Naxçıvanın maarifçi ziyalılarının 26 may 1899-cu ildə Aleksandr Puşkinin anadan olmasının 100 illik yubileyini keçirmələri də dünya mədəniyyəti və ədəbiyyatına göstərilən marağın ifadəsi idi. Naxçıvan şəhərindəki 3 saylı rus məktəbi də Naxçıvanın dünyaya açılan daha bir pəncərəsi olmuş, ölkəmizə bir çox tanınmış ziyalılar, görkəmli dövlət xadimləri bəxş etmişdir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, yenidən qurulmuş Naxçıvan şəhər 3 saylı rus tam orta məktəbinin fəaliyyət göstərməsi “dövlətlərarası münasibətlər üçün də mühüm amildir”. Hazırda bu məktəbdə yaradılmış geniş imkanlar burada təhsilin və təlimin yüksək səviyyədə qurulmasına, əlaqələrin inkişaf etdirilməsinə tam təminat verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri həmişə həm də görülmüş işlərə, qazanılmış nailiyyətlərə qiymət verilməsi və qarşıda duran vəzifələrin müəyyən olunması baxımından yadda qalmışdır. Bu cəhətdən 2017-ci ilin 11 yanvar səfərində Naxçıvanda aparılan genişmiqyaslı işlərdə keyfiyyət amili, müasirlik səviyyəsi xüsusi olaraq nəzərə çarpdırılmışdır. Naxçıvanda yol inşaatının keyfiyyəti haqqındakı aşağıdakı fikirləri muxtar respublikadakı quruculuq proseslərində müşahidə olunan xüsusiyyətləri ictimai mühitin diqqət mərkəzinə çatdırmaq məqsədi daşıyır: *“Naxçıvan şəhərini digər şəhərlərlə birləşdirən gözəl və çox keyfiyyətli yollar salınıb. Bu gün mən bu yollardan keçmişəm. Onlar bir neçə ildir ki, istifadəyə verilib, amma elə bil ki, dünən tikilib. Yəni çox gözəl, keyfiyyətli yollardır. Naxçıvan-Culfa, Naxçıvan-Şahbuz, Naxçıvan-Sədərək yolları ən yüksək standartlara cavab verir... Kənd yollarının tikintisi də uğurla gedir”.*

Mühüm infrastruktur layihəsi olan yolların salınmasının timsalında dövlət səviyyəsində nəzərə çarpdırılan keyfiyyət amili Naxçıvan Muxtar Respublikasında cəmiyyət həyatının və quruculuq proseslərinin bütün sahələri üçün xarakterik xüsusiyyətdir. Prezidentin xüsusi olaraq qeyd etdiyi kimi, bütün işlərin “böyük məhəbbətlə, zövqlə, səliqə ilə görülməsi” Naxçıvan rəhbərliyinin səmərəli fəaliyyətinin əsas göstəricisidir. Uzunmüddətli xidmət üçün nəzərdə tutulan quruculuq işlərinin yüksək keyfiyyətlə və müasir səviyyədə həyata keçirilməsi eyni layihəyə təkrar maliyyə vəsaiti ayrılmasına yer qoymadan daim yeni infrastruktur obyektlərinin icra edilməsinə meydan açır. Bu isə muxtar respublikada dəyişikliklərin miqyasının genişləndirilməsinə, hərtərəfli və dayanıqlı inkişafın təmin edilməsinə səbəb olur, yeni və ən müasir inkişaf səviyyəsinin formalaşdırılmasını təmin etməyə imkan yaradır. Bu mənada, məqsədyönlü şəkildə həyata keçirilən böyük quruculuq prosesləri haqqında yekun qənaətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aşağıdakı fikirlərində ifadə olunmuşdur: *“Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var”.*

Bu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə aparılan məqsədyönlü və genişmiqyaslı işlərə, ardıcıl və yaradıcı təşəbbüslərə, davamlı proseslərə və dayanıqlı inkişafa dövlət səviyyəsində verilən yüksək qiymətdir. Bu, yeni Azərbaycanın müasir intibahında Naxçıvan Muxtar Respublikasının yerini, rolunu, xidmətlərini ifadə edən mühüm qənaətdir.

“Çiçəklənmə dövrü” – Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uzun illər ərzində aparılan böyük quruculuq işlərinin gəlib çatdığı yüksək tarixi mərhələdir.

“Bütün istiqamətlər üzrə” inkişaf – ölkəmizdə müstəqil dövlətçiliyin möhkəmləndirilməsi strategiyasının əsas hədəfi və uğurlu nəticəsidir. Naxçıvan Muxtar Respublikasının “bütün istiqamətlər üzrə” hərtərəfli və yüksək inkişafa nail olması bu diyarda müasir intibah proseslərinin baş verdiyini diqqət mərkəzinə çəkir.

“Çiçəklənmə dövrü” – real bir intibah mərhələsi mənasını ifadə edir ki, bu gün Naxçıvan Muxtar Respublikası da daxil olmaqla bütövlükdə müstəqil Azərbaycan dövləti həmin tarixi mərhələni yaşamaqda və daha da inkişaf etdirməkdədir.

“Çiçəklənmə dövrü” – Naxçıvan Muxtar Respublikasının simasında yeni Azərbaycanda baş verən böyük dəyişikliklərin geniş miqyasını ifadə edən obyektiv reallığın dəqiq təyinatıdır.

**İsa HƏBİBBƏYLİ,**

***Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik***

***“Azərbaycan” qəzeti, 3 fevral 2017-ci il***



## Şərurdakı hərtərəfli inkişaf bu qədim diyarın sakinlərinin qurub-yaratmaq əzmini artırır

***Müstəqillik əldə etdikdən sonra Naxçıvan Muxtar Respublikasının hərtərəfli tərəqqisini özündə əks etdirən, inkişaf və quruculuğun, sözün geniş mənasında, daha bir ünvanına çevrilmiş Şərur rayonu bu gün yüksəlişinin yeni mərhələsindədir. Son illərdə rayonun siması xeyli dəyişib, çoxlu sayda sosial obyektlər, xidmət sahələri, istehsal və emal müəssisələri yaradılıb, yollar, körpülər salınıb, meliorasiya qurğuları istismara verilib.***

Ölkə başçısının imzaladığı, icrasına xüsusi diqqət və tələbkarlıqla yanaşılan regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində bu gün bütün bölgələr kimi, Şərurda da yeniləşmə ruhu hakimdir, insanlar böyük həvəslə qurub-yaratmaq, abadlaşdırmaq istəyirlər, sabahlarının bu gündən daha yaxşı olması üçün qüvvələrini əsirgəmirlər. Ümumiyyətlə, respublikamızda iqtisadi potensialın hərtərəfli inkişafının təmin edilməsi, mövcud resurslardan səmərəli istifadə olunması sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, yeni istehsal və emal müəssisələrinin işə salınması, əhalinin məşğulluğunun yüksək səviyyədə təmin olunması istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikamızın bu qədim bölgəsini də əhatə edib.

Şərur həm ərazisinə, həm də əhalisinin sayına görə muxtar respublikanın ən böyük bölgəsidir. Bu il yanvarın 1-nə olan məlumata görə, rayonun əhalisi 114 min 596 nəfərdir. Şərurda ta qədimdən, əsasən, taxıl, kartof, meyvə, bostan-tərəvəz məhsulları istehsal edilir. Heyvandarlıqla, quşçuluqla, arıçılıqla məşğul olan ailələrin sayı ildən-ilə artır. 150 milyon kubmetr su tutumu olan Arpaçay dəryaçası rayonun bərəkətli torpaqlarına həyat verir. Qum-çınqıl zavodu, asfalt zavod, çörək və çörək məhsulları müəssisələri, “Şərur-3” Məhdud Məsuliyyətli Cəmiyyəti rayonun əsas sənaye müəssisələrindəndir. Aparılan ardıcıl işlər, həyata keçirilən məqsədyönlü tədbirlər rayonun sosial-iqtisadi həyatını canlandıran amillərdir. Bunun nəticəsi olaraq əhalinin maddi rifah halı da getgedə yüksəlir, yaşayış məntəqələri simasını sürətlə dəyişir, gözəlliyə qovuşur.

Şərurun mərkəzindən tutmuş ən ucqar dağ kəndlərinə qədər diqqətçəkən məqam budur ki, insan amili daim ön plandadır, əhalinin rahatlığı, sərbəst işləməsi və yaşaması üçün hər cür imkan və şərait yaradılır. Əgər bu gün rayon mərkəzindən xeyli aralı məsafədə yerləşən Havuş, Tənənəm, Şahbulaq, Yuxarı Yaycı kəndləri fasiləsiz elektrik enerjisi ilə, təbii qazla təmin olunursa, kəndlərə gedən yollara asfalt örtük salınırsa, məktəblər, tibb məntəqələri, mədəniyyət müəssisələri, rabitə evləri müasir binalarda fəaliyyət göstərirsə, deməli, Şərur daha işıqlı sabahlara doğru addımlayır.

Təbii ki, rayon mərkəzi kimi Şərur şəhəri də son illər aparılan abadlıq-quruculuq işləri sayəsində sürətlə inkişaf edir, böyüyür, gözəlləşir. Geniş ərazini əhatə edən Heydər parkı, ulu öndərin adını daşıyan yaraşıqlı prospekt, bir-birinin ardınca tikilən, yaxud əsaslı şəkildə yenidən qurulan ictimai və inzibati binalar, sosial obyektlər, bağ-bağçalar, gülkarlıqlar şəhərin gözəlliyinə yeni çalarlar qatır. Küçə və parklarda səliqə-sahman yaradılır, təmizliyə xüsusi fikir verilir. Bütün bunların nəticəsində rayon sakinlərinin doğma el-obaya, torpağa bağlılığı artır, fərdi təşəbbüskarlıq yüksəlir. Rayonda sahibkarlığa geniş meydan verilməsinin nəticəsidir ki, istehsal olunan kənd təsərrüfatı və sənaye məhsullarının əksər hissəsi özəl sektorun payına düşür.

Ötənilki statistik rəqəmlər də bunu təsdiq edir. 2016-cı ildə 866 torpaq mülkiyyətçisinə əkin sahələrinin becərilməsi üçün 8 min 752 hektar torpaq sahəsinə görə 437 min 600 manat məbləğində yardım, kənd təsərrüfatının inkişafı üçün Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına 145 min 200 manat, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 1 milyon 679 min 200 manat güzəştli kredit verilib. Göstərilən qayğının nəticəsidir ki, bəhs olunan dövrdə rayonda 24 min 117 ton taxıl istehsal edilib, hektarın orta məhsuldarlığı 31,6 sentner olub. Kartof istehsalı 11 min 342 tona, meyvə istehsalı 20 min 488 tona, üzüm istehsalı 1443 tona, tərəvəz istehsalı 28 min 783 tona, bostan məhsulları istehsalı 6 min 515,5 tona, dən qarğıdalı istehsalı 6 min 936 tona çatdırılıb, 83 ton günəbaxan tumu tədarük edilib. Rayonda soğan əkininə maraq xeyli artıb, 95 hektar, yəni əvvəlki ildəkindən 10 hektar çox sahə soğan əkini üçün ayrılıb, bu sahələrdən 4 min 300 ton məhsul yığılıb.

Şərurda həyata vəsiqə alan irimiqyaslı layihələr, dövlət proqramlarının uğurlu icrası rayonun hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Ölkə Prezidenti cənab İlham Əliyev rayonda görülən işləri yüksək qiymətləndirərək deyib: ***“Şərurda bütün sosial məsələlər həllini çox uğurla və keyfiyyətlə tapır, sosial infrastrukturun yaradılması bu rayonda sürətlə gedir”.*** Ölkə başçısının görülmüş işlərə verdiyi yüksək dəyər, işlədiyi sahədən asılı olmayaraq, hər kəsi daha səylə və fədakarlıqla çalışmağa ruhlandırıb. Faktlara nəzər salaq: 2015-ci illə müqayisədə 2016-cı ilin on bir ayında sənaye məhsulunun həcmi 1,2 faiz artaraq 82 milyon 568,8 min manata çatıb. Müqayisə apardığımız dövrdə əsas kapitala yönəldilən investisiyaların həcmi 3,4 faiz artaraq 73 milyon 511,9 min manat təşkil edib. Tikinti-quruculuq işlərinə yönəldilən vəsait əvvəlki ilin müvafiq dövründəkinə nisbətən 4,1 faiz çox, daha dəqiqi 69 milyon 429,7 min manat olub.

Ümumiyyətlə, Şərurda tikinti, abadlıq və quruculuq işləri ilbəil genişlənir. Rayonu gəzib-dolaşdıqca yenidənqurma işlərinin daha geniş vüsət aldığının şahidi oluruq. İstər Şərur şəhərində, istərsə də kəndlərdə küçələr, avtomobil yolları genişləndirilir, səkilərə kilid daşlar, yollara asfalt döşənir. Bütün yenidənqurma işlərində milli memarlıq xüsusiyyətləri və müasirlik nəzərə alınır. Son illər qaçqınlar, məcburi köçkünlər, Azərbaycan Vətən müharibəsi əlilləri, şəhid və zabit ailələri üçün çoxlu sayda fərdi mənzillər tikilib istifadəyə verilib.

Son illər Şərurun 45-ə yaxın kəndində geniş quruculuq tədbirlərinin həyata keçirilməsi, məktəb binalarının, kənd və xidmət mərkəzlərinin tikilməsi rayonun görkəminə müasirlik gətirib. Rayonun təhsil sistemində də köklü dəyişikliklər edilib. Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində uzun illər diqqətdən kənarda qalmış və qəza vəziyyətinə düşmüş məktəblər üçün yeni binalar tikilib, bəzi məktəb binaları yenidən qurulub.

İnsanların sağlamlığının qorunması, onların tibbi ehtiyaclarının maksimum şəkildə qarşılanması məqsədilə səhiyyə müəssisələri ən modern üslubda yenilənib. Səhiyyə müəssisələrinin ixtisaslı kadrlarla təminatı da diqqət mərkəzində saxlanılır. Rayon mərkəzində geniş ərazini tutan, müasir standartlara tam cavab verən xəstəxana şəhərciyi ilə yanaşı, 30 çarpayılıq Aralıq Kənd Sahə Xəstəxanası, 32 feldşer-mama məntəqəsi, 28 həkim ambulatoriyası əhalinin xidmətindədir.

Şərurda sürətli və irimiqyaslı quruculuq işləri, istehsalın genişləndirilməsi ötən il də davam etdirilib. Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün tədris və yataqxana korpusları, Arbatan kəndində 234, Oğlanqalada 576 yerlik orta məktəb, kənd və xidmət mərkəzləri, Yengicə kəndində müharibə əlili üçün yaşayış evi, Mahmudkənddə, Aralıq və Aşağı Yaycı kəndlərində futbol meydançaları tikilərək istifadəyə verilib, Şərur şəhərinin Heydər Əliyev prospektindəki hər biri 24 mənzilli 46 və 48 nömrəli ictimai yaşayış binaları əsaslı şəkildə təmir edilib, Xanlıqlardakı “İmamzadə” bərpa olunub. Bu yaxınlarda isə Arpaçay və Çəmənli kəndlərində yeni sosial obyektlər istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan-Sədərək magistral avtomobil yolunun rayon ərazisindən keçən ikinci hissəsinin açılışında deyib: ***“Bilirsiniz ki, yol tikintisi inkişaf, insanların normal, rahat yaşaması üçün əsasdır. Harada ki yol tikilir, orada inkişaf var, harada ki yol tikilir, müəssisələr yaradılır, orada canlanma gedir. Ona görə də bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir. O cümlədən Naxçıvanda da bu gözəl proseslər sürətlə gedir və həll olunur”.*** Son vaxtlar Şərur rayonunda bu istiqamətdə də xeyli iş görülüb. Ələkli kəndi ərazisində asfalt-beton zavodunun və Qarxunda qum-çınqıl karxanasının istifadəyə verilməsi yol təmiri və tikintisi işlərini sürətləndirib. Təkcə ötən il rayonda 2 milyon 179 min 987 manatlıq yol təmiri və tikintisi işləri görülüb. 5,9 kilometrlik Çərçiboğan-Arbatan, Dərvişlər, Arpaçay, Çəmənli və Babəki kəndlərini birləşdirən 9,7 kilometrlik, 1 kilometr uzunluğunda olan Arbatan-Çomaxtur yolları əsaslı şəkildə yenidən qurulub, rayon mərkəzində və kəndarası yollarda cari təmir işləri görülüb.

Dövlətin göstərdiyi diqqət və qayğıdan bəhrələnən əhalinin gəlirlərinin artması çoxsaylı fərdi yaşayış evlərinin, yardımçı binaların tikintisinə, digər infrastrukturların yaradılmasına imkan verib. Həyata keçirilən tədbirlər nəticəsində ötən illərdə Şərurun sosial-iqtisadi inkişafına yeni töhfələr vermək, əhalinin məşğulluğunu təmin etmək üçün sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində mühüm addımlar atılıb və konkret nəticələr əldə edilib. Buna misal kimi “Yubfi” firmasını, Zeyvə kəndindəki quşçuluq fabrikini, “Şərur Aqrotexservis” Açıq Səhmdar Cəmiyyətini, “Şərur-3”, “Şərur çörək”, “Arpaçay” Məhdud Məsuliyyətli cəmiyyətlərini, soyuducu anbarları və digərlərini göstərmək olar.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası, sahibkarlığın inkişafına və yeni iş yerlərinin açılmasına xüsusi diqqət yetirilməsi rayonda əhalinin məşğulluğuna müsbət təsir göstərib. Bütün bunların nəticəsidir ki, ötən il 612 nəfər işaxtaran rayon məşğulluq mərkəzində qeydiyyata alınıb, onların 556 nəfəri daimi işlə təmin olunub, 50 nəfər müvəqqəti iş yeri əldə edib.

Aparılan genişmiqyaslı yaşıllaşdırma tədbirləri də rayonun gözəlliyinə öz təsirini göstərib. Ötən il bu sahədə daha çox iş görülüb. Naxçıvan-Sədərək magistral yolunun kənarlarında, müxtəlif yaşayış məntəqələrində 11,5 hektar sahədə yeni meyvə bağı salınıb, 15 hektar meyvə bağında bərpa işləri aparılıb. 49 min 389 ədəd ting əkilib ki, bunun da 19 min 850-si ərazinin təbii-iqlim şəraitinə uyğun meyvə tinglərídir. Yaşıllıqlara qulluq tədbirləri ilboyu davam etdirilir.

Rayonda xidmət təşkilatlarının, o cümlədən elektrik və qaz təsərrüfatının inkişaf etdirilməsi, əhalinin içməli və suvarma suyu ilə təmin olunması, nəqliyyat, rabitə və informasiya sahələrinin işinin nizamlanması istiqamətində görülən işlər də qənaətləndiricidir.

***Bəli, bu gün Şərurda gedən inkişaf prosesləri, əldə edilən uğurlar hər bir insanı sevindirir, sakinlərin gələcəyə inam hissini daha da yüksəldir. Şərur bu gün abad yaşayış məntəqələri, yolları, bağbağçaları, bol məhsul verən əkin sahələri ilə müasir Azərbaycan rayonunun bir nümunəsidir. Bu torpağın hüsnünə tamaşa etdikcə düşünürsən ki, zəhmətkeş insanların illərlə davam edən yorulmaz əməyi artıq öz əməli nəticələrini verib. Şərurun hər günü, hər ayı abadlıq, quruculuq, yaşıllaşdırma tədbirləri ilə, sənaye və istehsal müəssisələrində, aqrar sahədə inkişafla, tərəqqi ilə yadda qalır. Bütün bunların yaratdığı qənaət belədir: Şərurun indiki növrağı belədir, sabahı daha da cazibədar olacaq.***

**Elman MƏMMƏDOV**

## Smartkarttipli elektrik sayğaclarının quraşdırılması davam etdirilir

*Qış mövsümündə idarə, müəssisə və təşkilatların fasiləsiz fəaliyyət göstərməsini və əhalinin normal yaşayışını təmin edən əsas amillərdən biri də abonentlərin fasiləsiz elektrik enerjisi ilə təmin olunmasıdır.*

Qeyd edək ki, bu istiqamətdə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib. Son illər muxtar respublikamızda həyata keçirilən irimiqyaslı layihələr digər sahələrdə olduğu kimi, abonentlərin fasiləsiz elektrik enerjisi ilə təminatına da əlverişli şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən verilən məlumata görə, muxtar respublikada yay mövsümündə elektrik enerjisinə olan tələbat 80-85 meqavat, qış mövsümündə 45-50 meqavat təşkil edir. Əhalinin və təsərrüfat subyektlərinin qış mövsümündə elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün hazırlıq işlərinə xüsusi diqqət yetirilib, lazımi mal-material ehtiyatı yaradılıb. Həmçinin elektrik stansiyalarında, yüksək və alçaq gərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılıb, tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması, müxtəlif gərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlər həyata keçirilib. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexləri lazımi ehtiyat hissələri, dolaq, elektrotexniki kağız və materiallarla təmin edilib. Əsas avadanlıq və materialların birbaşa xarici ölkələrin istehsalçı müəssisə və təşkilatlarından alınması işləri davam etdirilir. Ümumiyyətlə, abonentlərin, o cümlədən inzibati və ictimai yaşayış binalarını istiliklə təmin edən qazanxanaların fasiləsiz və təhlükəsiz elektrik enerjisi ilə təmin olunmasına, baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə hərtərəfli şərait yaradılıb.

Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla sərf olunan elektrik enerjisinin dəqiq uçotunun aparılması məqsədilə sayğacların quraşdırılması işi də vaxtında başa çatdırılıb. 2015-ci ilin iyul ayından isə Naxçıvan şəhərində daha müasir, ön ödənişli, smartkarttipli sayğacların quraşdırılmasına başlanılıb.

Bu məqsədlə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Naxçıvan şəhərində smartkarttipli sayğacların quraşdırılmasına başlanılması insanlar tərəfindən onlara göstərilən daha bir qayğı kimi dəyərləndirilir. Qeyd edək ki, bu sayğacların əsas xüsusiyyəti abonentlərin elektrik enerjisinin təminatını öncədən ödəniş etməklə həyata keçirməkdən ibarətdir. Naxçıvan şəhərinin müxtəlif məhəllələrində təmir edilmiş ictimai yaşayış binaları və fərdi yaşayış evləri yeni sayğaclarla təchiz olunur.

Əhali qrupu üzrə istehlakçıların elektrik enerjisindən müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli sayğacların quraşdırılması davam etdirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən aldığımız məlumata görə, indiyədək Naxçıvan şəhərində 15 min 150 ədəd sayğac quraşdırılıb. Sayğacların kənar müdaxilələrdən mühafizəsi də diqqətdə saxlanılıb. Bu məqsədlə qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilərək quraşdırılır.

**Kərəm HƏSƏNOV**

# Naxçıvanda bədii gimnastikaya maraq artır

***Naxçıvan Muxtar Respublikasında uşaq, yeniyetmə və gənclərin idmana cəlbi, onların sağlam böyüməsi üçün mühüm tədbirlər həyata keçirilib. Bunun nəticəsidir ki, ötən il muxtar respublika idmançıları ölkədaxili və beynəlxalq turnirlərdə 108 medal qazanıblar.***



Muxtar respublikada idmanın bütün növlərinə maraq göstərilməsi, 40 mindən çox uşaq, yeniyetmə və gəncin idmanla məşğul olması Naxçıvanda gələcək nəslin sağlam böyüdüyündən xəbər verir. Hazırda muxtar respublikada 12 idman federasiyası, Gənclər və İdman Nazirliyinin nəzdində olan idman bölmələri bu sahənin inkişafına töhfələrini verməkdədirlər. Hər bir idman növü çətinliyinə, dözümlülüyünə, çevikliyinə, hətta tamaşaçı auditoriyasına görə seçilir. Hazırda dünya idmanında "elit növ" adını qazanan bədii gimnastikanın Naxçıvan Muxtar Respublikasında təşəkkül tapması 2014-cü ilə təsadüf edir. Məlumat üçün bildirək ki, İsveçdə yaranan bədii gimnastikanı aktyorluq, balet, musiqi və pantomim ilə birlikdə edirlər. Həm incəsənət, həm də idman növü olan bədii gimnastika özündə iki yarış proqramını birləşdirir: fərdi çıxışlar və qrup hərəkətləri. Hər bir qrup komandası 5 əsas və 1 ehtiyatda olan gimnastdan ibarət olur. Ehtiyatda olan gimnast 2 hərəkətdən birində çıxış etməlidir. Bədii gimnastika sırf qadın idman növüdür və ölçüsü 13x13 metr olan xüsusi xalçada musiqi müşayiəti ilə yerinə yetirilir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən bədii gimnastika bölməsinə məşqçi-müəllim, Azərbaycan Respublikasının idman ustası Humay Qafarova rəhbərlik edir. Bədii gimnastika ilə, adətən, 3-11 yaşlı qız uşaqları məşğul olurlar. Onların bu yaşdan gimnastika məşqlərində iştirakı gələcəkdə daha peşəkar idmançı olmalarına şərait yaradır. Uşaq yaşlarından bu idmana maraq göstərənlər zaman keçdikcə bədii gimnastikaya daha çox bağlı olurlar. Bu gün Naxçıvanda bədii gimnastikanın inkişafı üçün lazımi şərait yaradılıb. Bunun üçün idman zalı ayrılıb və zal bədii gimnastikanın tələblərinə uyğun olaraq idman qurğuları ilə təmin edilib.

"Üç ilə yaxındır ki, bədii gimnastika bölməsi fəaliyyət göstərir", – deyən Humay Qafarova ilk olaraq bədii gimnastikanın faydaları haqqında məlumat verdi: "Hər bir valideyn uşağının sağlam böyüməsini istəyir. Bunun üçün uşağın sağlamlığına müsbət təsir göstərəcək idman növü seçmək lazımdır. Bədii gimnastika bu sahədə digərlərindən öndədir. Uşağın gimnastika ilə məşğul olması onda ahəngdar fiziki və psixoloji inkişafa imkan yaradır. Gimnastika əsəb sisteminə sakitləşdirici təsir göstərir, uşağın orqanizmini möhkəmləndirir. Eyni zamanda bədii gimnastika əzələ sistemini bərkidir, koordinasiyanı inkişaf etdirir. Bu idman növü həmçinin uşaqda gələcək üçün fiziki tərbiyə formalaşdırır, əqli inkişafa kömək edir. Valideynlər bilməlidirlər ki, gimnastika iradəni möhkəmlədir, uşaqda dözümlülük, intizam, kollektivçilik, yoldaşlıq və dostluq kimi keyfiyyətlər tərbiyə edir. Bizim əsas məqsədimiz fiziki cəhətdən sağlam, gümrah nəsil tərbiyə etməkdən, onları əməyə və fəal ictimai həyata hazırlamaqdan ibarətdir".

Humay Qafarova bildirdi ki, bədii gimnastika bölməsinə müraciət edənlərin sayı xeyli artıb: "Bu sahəyə maraq göstərən idmançılar ilk günlər İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məşq etsələr də, sonra bizim üçün xüsusi yer ayrıldı. Uşaqların bu növə cəlb edilməsi üçün müəyyən işlər gördük. Nəticədə, bu gün Naxçıvanda bədii gimnastika ilə məşğul olan uşaqların sayı 150-dən çoxdur. Yay aylarında isə müraciət edənlərin sayı daha da artır. Hazırda məşqlərimiz Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasının idman zalında aparılır. Həftənin 6 günü uşaqlar 3 qrupda keçirilən məşqlərdə iştirak edirlər. Eyni zamanda qarşıdakı yarışlara daha yaxşı hazırlaşmaq üçün əlavə olaraq bir qrup da yaratmışıq və yarışlarda iştirak edəcək uşaqlarla fərdi məşqlər aparılır. Bununla yanaşı, Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzində fiziki imkanları məhdud uşaqlar üçün də məşqlər təşkil edilib. Uşaqlar istədikləri vaxt bu məşq proseslərində iştirak edə bilərlər".

Uşaq Bərpa Mərkəzində olarkən valideynlərlə söhbətləşdik. Sevinc Musayevanın da övladı bərpa mərkəzində məşq edir. O bildirdi ki, bədii gimnastika bölməsinin yaradılması uşaqların sağlamlığına xeyli təsir göstərib: "Eşitdik ki, burada bədii gimnastika bölməsi fəaliyyətə başlayıb. Vaxt itirmədən müraciət etdik və uşaqda olan həvəsin gündən-günə artdığını gördük. Fiziki imkanları məhdud uşaqlar üçün hər cür şərait yaradılıb və onları cəmiyyətə qazandırmaq üçün işlər aparılır".

Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında məşqlərini davam etdirən bədii gimnastlara göstərilən diqqət valideynləri də sevindirir. Həmsöhbət olduğumuz Təhminə Mikayılova vurğuladı ki, bu idman növündə bölmənin açılması, ilk növbədə, qız uşaqlarının sağlamlığı üçün çox vacibdir. Valideyni hər zaman uşağının sağlam böyüməsi ilə yanaşı, onun gələcək karyerası da maraqlandırır. Əgər uşaq kiçik yaşlarından idmana cəlb olunarsa, o zaman onun cəmiyyətə faydalı olacağı da şübhəsizdir. Təhminə Mikayılova uşaqların bədii gimnastika ilə məşğul olması üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirdi.

Güllü Məmmədova isə söhbətində bədii gimnastika bölməsinin fəaliyyətinin təkcə uşaqlar üçün yox, valideynlər üçün də xeyirli olduğunu vurğuladı: "Uşaqların məşq prosesi zamanı biz valideynlər vaxtın hədər getməməsi üçün özümüz də məşq edirik. Stadionun qaçış zolağından istifadə edir, eyni zamanda quraşdırılan qurğulardan yararlanırıq".

Sonda məşqçi-müəllim gələcək planlar barədə də danışdı: "Naxçıvanda bədii gimnastika inkişaf yolundadır. Qarşıdakı aylarda muxtar respublikanın rayonlarında da bölmələrin yaradılması nəzərdə tutulub. Bununla yanaşı, Naxçıvan Dövlət Universitetində də bədii gimnastika bölməsi fəaliyyət göstərəcək. Bütün bunlar onu göstərir ki, bu gün muxtar respublikada idmanın inkişafı üçün yüksək şərait var. Biz məşqçilər isə bundan istifadə edib uşaqları bədii gimnastikaya cəlb etməliyik".

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 24 fevral 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 0,1037 hektar torpaq sahəsində yerləşən, 75,95 kv.m yaşayış sahəsindən ibarət 1-(2) mərtəbəli, 5 otaqlı, 82 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, B.Abbasov küçəsi | 60.000 | 3.000 |
| 2. | 0,072 hektar torpaq sahəsində yerləşən 1 nömrəli, 5 mərtəbəli binanın 1-ci girişində, 4-cü mərtəbəsində, 51,26 kv.m ümumi, 30,2 kv.m yaşayış sahəsindən ibarət 2 otaqlı, 11 nömrəli mənzil | Naxçıvan şəhəri, Atabəylər məhəlləsi | 32.000 | 1.600 |
| 3. | Naxçıvan şəhəri, Nizami küçəsində yerləşən 57 nömrəli, 5 mərtəbəli binanın 1-ci girişində, 1-ci mərtəbəsində 1 otaqlı, 1 nömrəli mənzil | Naxçıvan şəhəri, Nizami küçəsi | 27.000 | 1.350 |
| 4. | Naxçıvan şəhəri, Ə.Naxçıvani məhəlləsi, döngə 2-də yerləşən 18 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, Ə.Naxçıvani məhəlləsi | 20.000 | 1.000 |
| 5. | 0,1562 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 76,0 kv.m yaşayış, 49,5 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Şahtaxtı kəndi | 13.529 | 676.45 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh "Kapital Bank" Naxçıvan Muxtar Respublikası Baş İdarəsindəki AZ87AİİB45090249443100007500, "Azərbaycan Beynəlxalq Bank" ASC-nin Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin AZ03NABZ01350100000000005944 və "Kapital Bank" ASC-nin Kəngərli rayon filialında olan AZ37NABZ01350100000000001944 nömrəli hesabına 20 fevral 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ 12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 24 fevral 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## "Gənclik" Xalq Teatrı əsgər və zabitlər qarşısında çıxış edib

*Ötən şənbə günü "Gənclik" Xalq Teatrı Naxçıvan şəhərindəki Zabitlər evində yazıçı-dramaturq Məhərrəm Əlizadənin "Şeyx Rəhmətullah" komediyasının motivləri əsasında hazırlanmış "Qəşəmin yuxusu" tamaşasını əsgər və zabitlərə təqdim edib.*

Tamaşadan əvvəl bildirilib ki, Naxçıvan şəhərində fəaliyyət göstərən "Gənclik" Xalq Teatrı 1973-cü ildən Naxçıvan Şəhər 1 nömrəli Mədəniyyət Evində dram dərnəyi kimi fəaliyyətə başlayıb, 1978-ci ildə kollektivə xalq teatrı statusu verilib. Teatrın səhnəsində müxtəlif illərdə maraqlı səhnə əsərləri oynanılıb. "Ezop", "Bəxtsiz cavan", "Ölülər", "Kamança", "Ana", "Məhəbbət nişanəsi", "Durna", "Yollara iz düşür", "Vaqif" və başqa pyeslər tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Teatrın səhnəsində vaxtilə maraqlı obrazlar yaratmış aktyor və aktrisaların çoxu Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülməklə bu gün də teatr səhnəmizə öz töhfələrini verirlər. Xalq teatrının kollektivi müxtəlif illərdə ölkəmizin paytaxtı Bakı şəhərində, respublikanın Mingəçevir, Şamaxı, Qazax, Zaqatala və digər rayonlarında qastrol səfərlərində olub.

"Qəşəmin yuxusu" tamaşasındakı hadisələr ötən əsrin 30-40-cı illərində cəhalət və xurafatın hökm sürdüyü bir mühitdə baş verir. Əsl dinin mahiyyətini bilməyən, əhalinin cahil və savadsız təbəqəsinin avamlığından faydalanan və müqəddəs dini dəyərləri anlamayan, insanların sadəlövhlüyündən istifadə edərək öz mənafeyini düşünən Molla Qılınc (Azərbaycan Respublikasının Əməkdar artisti Behruz Haxverdiyev) fırıldaqçı, yalnız özünü düşünən, dini dəyərləri qazanca çevirən bir tipdir. Əslində, Molla Qılınc M.F.Axundov, C.Məmmədquluzadə, N.Vəzirov, Ə.Haqverdiyev və başqa böyük yazıçılarımızın əsərlərində rast gəldiyimiz fırıldaqçılığı din pərdəsi altında həyata keçirən surətlərin bir nümunəsidir. Zaman dəyişdikcə bu tiplər də buqələmun kimi sifətlərinin rəngini dəyişib yeni mühitə uyğunlaşırlar. Molla Qılınc həbsxanadan yenicə azad olunmuş Ataxanı (aktyor Yusif Əliyev) öz təsiri altına salır. Başqa bir mənəvi şikəst Qəşəmdir. Qəşəm (aktyor Akif Əsədov) varına və puluna arxalanaraq çirkin bir əmələ əl atır, Ataxanın arvadı Sərvinazla (aktyor Zülfiyyə Zeynalova) ailə qurmaq istəyir. Ataxan mənəvi cəhətdən kor bir məxluqa çevrilib əxlaqi düşkünlüyünü ortaya qoyur. Tamaşanın başqa qadın surəti İstiqraz (aktyor Maral Rzayeva) da bu hadisələrin iştirakçısıdır. Çox az personaj və surətin olduğu tamaşa mərhum yazıçı və dramaturqumuz Məhərrəm Əlizadənin başqa pyeslərində olduğu kimi sağlam gülüş elementləri ilə zəngindir. Əslində, o dövrün cəhalət mühitini anlamaq baxımından tamaşadakı rollar təbii və canlıdırlar. Aktyorlar rollarının öhdəsindən bacarıqla gələrək satirik gülüş yarada biliblər.

Qeyd edək ki, "Qəşəmin yuxusu" tamaşasının quruluşçu rejissoru Akif Əsədov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov, rəssamı Günel Mustafayevadır.

Tamaşa əsgər və zabitlərimizdə xoş ovqat yaradıb və alqışlarla qarşılanıb.

Hərbi hissə rəhbərliyi əsgər və zabitlərə göstərilən mədəni xidmətə görə kollektivə minnətdarlığını bildirib.

**Əli RZAYEV**

### *İtmişdir*

Həsənov Yadulla Rza oğlunun adına verilmiş 3065 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

Culfa rayonunun Gülüstan kəndində yerləşən "Gülüstan Mineral Sular İstehsalat Sənaye və Ticarət" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0600008561) fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 103